No: 02 2026
https://doi.org/10.64400/ea26-02-31
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

## TƏBİƏT VƏ TİBB ELMLƏRİ

# GƏNCƏ-DAŞKƏSƏN İQTİSADİ RAYONUNUN TOPONİMİYASI VƏ REGİONUN TARİXİ-İQTİSADİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Tünzalə İSMAYILOVA**
AR Elm və Təhsil Nazirliyi, Coğrafiya İnstitutu (PHŞ), Bakı, Azərbaycan
*Yazışılan müəllif: tunzaleismailova7@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* 06.06.2026
*Nəşr edilmə tarixi:* 25.06.2026

**AÇAR SÖZLƏR:** toponimika, iqtisadi coğrafiya, suvarma sistemi, yarımköçəri təsərrüfat, regional inkişaf, Gəncə–Daşkəsən

**XÜLASƏ**
Məqalə Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimik sisteminin regionun tarixi-iqtisadi inkişaf xüsusiyyətləri ilə qarşılıqlı əlaqəsinin iqtisadi-coğrafi aspektdə təhlilinə həsr olunmuşdur. Tədqiqatın məqsədi yer adlarının semantik, funksional və etimoloji xüsusiyyətləri əsasında ərazinin məskunlaşma formalarını, təsərrüfat strukturunu və sosial-iqtisadi transformasiya mərhələlərini müəyyənləşdirməkdir. Empirik baza 850 toponimdən ibarət olmuş, həmin materiallar tarixi mənbələr, arxiv sənədləri, kartoqrafik materiallar və sahə tədqiqatları əsasında sistemləşdirilmişdir. Müəyyən edilmişdir ki, hidronimlərin, qışlaq, oba, yataq, karvansara, mədən və sənətkarlıqla bağlı toponimlərin geniş yayılması regionun təsərrüfat strukturunda suvarma əkinçiliyinin, yarımköçəri maldarlığın, ticarət-kommunikasiya əlaqələrinin və dağ-mədən sənayesinin aparıcı mövqeyini əks etdirir. Toponimik sistemdə müşahidə olunan ideoloji renominasiya prosesləri isə siyasi transformasiyaların məkan üzərindəki izlərini göstərir. Bu sistemin kompleks təhlili regionun sosial-iqtisadi və tarixi inkişaf qanunauyğunluqlarının daha dərindən dərk edilməsinə imkan verir. Nəticədə “toponim–iqtisadi funksiya–tarixi mərhələ” modeli əsasında regionun məkan-funksional inkişaf trayektoriyası rekonstruksiya olunmuşdur. Tədqiqatın nəticələri tarixi landşaftın öyrənilməsi, regional planlaşdırmanın elmi əsaslandırılması və mədəni irsin qorunması istiqamətlərində mühüm elmi-praktik əhəmiyyətə malikdir.

## GİRİŞ

Məkanın tarixi-iqtisadi inkişaf xüsusiyyətlərinin öyrənilməsində toponimlər mühüm informasiya mənbəyi kimi çıxış edir. Coğrafi adlar yalnız nominativ vahidlər deyil, eyni zamanda müəyyən dövrün təsərrüfat strukturu, təbii resurslardan istifadə formaları, məskunlaşma modeli və sosial-iqtisadi transformasiyaları haqqında məlumat daşıyan semantik sistemdir. Klassik toponimika tədqiqatlarında yer adlarının bu xüsusiyyəti xüsusi vurğulanmış, onların tarixi-coğrafi reallığın linqvistik ifadəsi olduğu göstərilmişdir. Azərbaycan toponimikasında da regional xüsusiyyətlərin və coğrafi mühitin ad sistemində əks olunması məsələsi geniş şəkildə araşdırılmışdır (Qeybullayev, 1986; Nuriyev, 1986).

Müasir yanaşmalarda toponimlər yalnız dil faktı kimi deyil, həm də məkanın sosial-iqtisadi konstruksiyası və simvolik hakimiyyət mexanizmi kimi qiymətləndirilir. Bu baxımdan toponimika iqtisadi coğrafiya ilə kəsişən fənlərarası tədqiqat sahəsinə çevrilmişdir. Yer adları vasitəsilə müəyyən ərazidə təsərrüfatın ixtisaslaşma istiqamətlərini, resurs bazasını, nəqliyyat-kommunikasiya funksiyalarını və siyasi-ideoloji dəyişiklikləri izləmək mümkündür. Beləliklə, toponimika “məkanın tarixi-iqtisadi arxivi” funksiyasını yerinə yetirir.

Gəncə–Daşkəsən zonası Azərbaycanın qərb hissəsində yerləşən və tarixən çoxfunksiyalı iqtisadi məkan kimi formalaşmış regiondur. Ərazi qədim ticarət yollarının kəsişməsində yerləşmiş, suvarma əkinçiliyi, yarımköçəri maldarlıq, sənətkarlıq, dağ-mədən fəaliyyəti, sonrakı mərhələlərdə isə sənaye və kurort təsərrüfatı ilə səciyyələnmişdir. Bu struktur regionun toponimik landşaftında aydın şəkildə əks olunur. Ərazidə qeydə alınmış 850 toponim məkanın iqtisadi-landşaft inkişafının müxtəlif mərhələlərini əhatə edən zəngin empirik material təqdim edir.

Toponimiyada su təsərrüfatı ilə bağlı terminlərin – arx, kəhriz, su anbarı və s. – geniş yayılması yarımsəhra və quru subtropik şəraitdə süni suvarma sisteminin aparıcı rol oynadığını

göstərir (Borsunlu arxı, Xan arxı, Hazırəhmədli arxı, Məscid kəhrizi, Qaymaqlı kəhrizi). Xüsusilə Goranboy rayonunun ərazisində 64 arx adının qeydə alınması regionun aqrar iqtisadiyyatında suvarmanın sistemli xarakter daşıdığını göstərir (Yüzbaşov, 1966; Mehrəliyev, 1987). Eyni zamanda qışlaq, oba, yataq kimi terminlərin üstünlük təşkil etməsi yarımköçəri maldarlıq modelinin regionun məkan strukturunda mühüm yer tutduğunu göstərir (Yusifov və Kərimov, 1987).

Regionun tranzit-ticarət funksiyası karvan yolu, karvansara və sənətkarlıqla bağlı məhəllə adlarında (Dəmirçilər, Miskərlər, Əttarlar və s.) öz əksini tapmışdır (Azərbaycan dilinin dialektologiya lüğəti, 1964). Bu urbanonimlər şəhər daxilində əmək bölgüsünün və iqtisadi ixtisaslaşmanın formalaşdığını göstərir. Digər tərəfdən, Naftalan və Daşkəsən kimi funksional oykonimlər təbii resurs amilinin məkan inkişafına təsirini nümayiş etdirir. Naftalan oykonimi mineral-neft yatağı əsasında formalaşmış monofunksional urban modelin nümunəsidir, Daşkəsən isə dağ-mədən sənayesinin toponimik ifadəsini əks etdirir (Pospelov, 1971).

Gəncə toponiminin etimologiyası ilə bağlı mövcud versiyalar – fars mənşəli "ganj" (xəzinə) və qədim türk mənşəli "gəncəklər" tayfası – regionun etnik və tarixi qatlarının toponimiyada əksini göstərir. Eyni zamanda bölgənin qədim adı hesab edilən Sakasena etnotoponimik təbəqələşmənin dərinliyini göstərən mühüm fakt kimi çıxış edir. Oronimlər (Murovdağ, Qoşqar və s.) isə fiziki-coğrafi reallığın və qədim inancların sintezini əks etdirir (Nuriyev, 1986a).

Tarixi mərhələlər üzrə regionun iqtisadi strukturu toponimik sistemdə də izlənilə bilir. Antik və orta əsrlərdə Böyük İpək Yolu üzərində yerləşmə tranzit-ticarət funksiyasını gücləndirmiş, Səfəvilər və xanlıqlar dövründə siyasi mərkəz rolu formalaşmış, XIX əsrdə alman məskunlaşması (Helenendorf–Göygöl) kənd təsərrüfatı və şərabçılıq ixtisaslaşmasına təsir göstərmişdir. Müasir mərhələdə isə dağ-mədən sənayesi, metallurgiya, energetika və nəqliyyat-logistika layihələri regionun iqtisadi profilini müəyyənləşdirir (Yüzbaşov, F., 1966).

Beləliklə, Gəncə–Daşkəsən regionunun toponimik fondu regionun tarixi-iqtisadi inkişaf mərhələlərinin rekonstruksiyası üçün kompleks mənbə kimi çıxış edir. Toponimlərin funksional-semantik və məkan təhlili vasitəsilə təbii resurs potensialı, təsərrüfat strukturu, məskunlaşma dinamikası və ideoloji transformasiyalar arasında qarşılıqlı əlaqələri müəyyənləşdirmək mümkündür.

Tədqiqatın məqsədi Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimiyasını iqtisadi-coğrafi baxımdan sistemli şəkildə təhlil edərək regionun tarixi yer adlarının müasir dövrlə uyğunluğunu müəyyənləşdirməkdir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, toponimlər yalnız linqvistik obyekt kimi deyil, iqtisadi-coğrafi indikator kimi kompleks şəkildə qiymətləndirilir və regionun aqrar, maldarlıq, tranzit-ticarət, sənaye və resurs əsaslı inkişaf mərhələləri ilə əlaqələndirilir. Əldə olunan nəticələr tarixi landşaftın rekonstruksiyası, regional iqtisadi rayonlaşdırma və məkan planlaşdırılması üçün metodoloji baza formalaşdırır.

Mövcud ədəbiyyatda Gəncə–Daşkəsən regionunun toponimiyası əsasən linqvistik, etimoloji və təsviri istiqamətdə araşdırılmışdır (Abbasov, M. Ə., & Nuriyev, E. B. 1988). Klassik tədqiqatlarda yer adlarının mənşəyi, dialekt xüsusiyyətləri və etnik qatları geniş şərh edilmiş, regionun toponimik fondunun zənginliyi qeyd olunmuşdur. Lakin bu araşdırmalarda toponimlərin iqtisadi-coğrafi baxımından sistemli təhlili aparılmamış, yer adları ilə təsərrüfat strukturu arasında kəmiyyət və funksional əlaqələr modelləşdirilməmişdir.

Eyni zamanda regionun suvarma sistemləri, yarımköçəri maldarlıq, tranzit-ticarət funksiyası və dağ-mədən sənayesi kimi iqtisadi istiqamətləri ayrıca öyrənilsə də, bu sahələrin toponimik landşaftla qarşılıqlı əlaqəsi kompleks şəkildə təhlil edilməmişdir. İdeoloji renominasiya proseslərinin sovet və postsovet mərhələlərində regional məkan strukturuna təsiri də əsasən tarixi-siyasi kontekstdə araşdırılmış, sonrakı dövrlərdə iqtisadiyyatın inkişafı ilə əlaqədar mövcud dəyişikliklər bir-biri ilə əlaqəli şəkildə qiymətləndirilməmişdir (Kadmon, N., 2004).

Beləliklə, mövcud tədqiqatlarda Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimiyası ilə regionun tarixi-iqtisadi inkişaf mərhələləri arasında sistemli, funksional və modelləşdirilmiş əlaqə qurulmamışdır. Bu boşluq toponimlərin yalnız dil faktı kimi deyil, məkanın iqtisadi-struktur inkişafının indikatoru kimi qiymətləndirilməsini zəruri edir. Təqdim olunan tədqiqat məhz bu boşluğu

dolduraraq toponimik məlumat bazası əsasında regionun məkanla əlaqəli yer adlarında baş verən dəyişikliklərin müəyyən edilməsi əsas yer tutur.

## MATERİAL VƏ METODLAR

Tədqiqatın aparıldığı ərazi Azərbaycanın qərb hissəsində yerləşən Gəncə–Daşkəsən iqtisadi rayonunu əhatə edir. Region Gəncə şəhəri, Daşkəsən, Gədəbəy, Göygöl, Goranboy, Samux rayonları və Naftalan şəhərindən ibarət olub, Kiçik Qafqazın dağlıq sahələri ilə Kür-Araz ovalığının qərb hissəsini özündə birləşdirir. Müxtəlif relyef və iqlim şəraitinə malik olan bu ərazi zəngin təbii resursları, inkişaf etmiş aqrar və sənaye strukturu, eləcə də tarixi ticarət yolları üzərində yerləşməsi ilə səciyyələnir ki, bu da onun toponimik sisteminin formalaşmasına və iqtisadi-coğrafi xüsusiyyətlərinin inkişafına birbaşa təsir göstərmişdir.

Bu tədqiqatda Gəncə–Daşkəsən regionunun toponimik landşaftı ilə regionun tarixi-iqtisadi inkişaf mərhələləri arasındakı əlaqəyə kompleks yanaşma əsasında təhlil edilmişdir. Metodologiya üç əsas blok üzrə qurulmuşdur: (1) empirik baza və məlumat mənbələri, (2) analitik təsnifat sistemi, (3) iqtisadi-coğrafi analiz modeli.

**Tədqiqatın empirik bazası.** Tədqiqatın əsas məlumat bazasını 850 toponim təşkil edir. Bu toponimlər aşağıdakı mənbələrəsasında formalaşdırılmışdır:

a) Arxiv və tarixi mənbələr

Orta əsr müəlliflərinin (Mahmud Qaşqari, Mirxond, Həmdullah Qəzvini və b.) əsərləri, qədim inzibati sənədlər, Səfəvilər və Çar Rusiyası dövrünə aid xəritələr, eləcə də arxiv materialları bu qrupa daxildir. Həmin mənbələr vasitəsilə toponimlərin tarixi qatları və erkən yazılı formaları müəyyən edilmişdir.

b) Elmi ədəbiyyat və toponimik lüğətlər

AMEA-nın Tarix və Dilçilik institutlarının nəşrləri, regional toponimik lüğətlər və onomastik tədqiqatlar toponimlərin etimoloji və linqvistik təhlili üçün istifadə edilmişdir.

c) Statistik məlumatlar

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin demoqrafik, sənaye, aqrar istehsal və investisiya göstəricilərindən (2011–2016) istifadə olunmuşdur. Bu göstəricilər toponimlərin iqtisadi fəaliyyət növləri ilə əlaqəsinin qiymətləndirilməsi üçün əsas mənbələrdən biri olmuşdur.

d) Sahə tədqiqatları

Sahə tədqiqatları regionun müxtəlif rayonlarında (Gəncə, Naftalan, Goranboy və s.) aparılmış ezamiyyət materialları və yerli əhali ilə müsahibələr əsasında toplanmış mikrotoponimləri əhatə edir. Bu mərhələdə xüsusilə rəsmi xəritələrdə əks olunmayan mikroobyekt adları qeydə alınmışdır. Tədqiqat materiallarına, həmçinin 1988-ci ildən sonrakı dövrlərdən toplanmış toponimlər də daxil edilmişdir.

**Toponimlərin təsnifatı və kodlaşdırılması.** Toponimlər funksional-semantik və struktur prinsiplər əsasında qruplaşdırılmışdır. Hər bir toponim aşağıdakı parametrlər üzrə kodlaşdırılmışdır:

1. Toponim növləri (oykonim, hidronim, oronim, urbanonim, mikrotoponim);
2. Funksional məzmun (aqrar, sənaye, tranzit, rekreasiya, ideoloji);
3. Dil mənsubiyyəti (türk, fars, ərəb, rus və s.);
4. Tarixi mərhələ (antik dövr, orta əsrlər, çar dövrü, sovet dövrü, müstəqillik dövrü).

Bu təhlil nəticəsində toponimlərin kəmiyyət bölgüsü və struktur nisbətləri müəyyən edilmişdir.

Toponimlərin statistik bölgüsü (şək):

- Oykonimlər – 17–18%;
- Oronimlər – təxminən 15%;
- Hidronimlər – 14–15%;
- Digər (mikrotoponimlər, sahə adları və s.) – 50%-dən çox.

Bu struktur regionun iqtisadi-landşaft müxtəlifliyini əks etdirir.




**Şəkil 1. Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimlərinin tipoloji bölgüsü**

**Analitik metodlar:**

Etimoloji və onomastik analiz;

Toponimlərin mənşəyi qədim türk, ərəb, fars və yerli dialekt qatları üzrə təhlil edilmişdir. Etnotoponimlər ayrıca qrup kimi ayrılmışdır.

Tarixi-müqayisəli metod;

Müxtəlif dövrlərə aid xəritələr və inzibati sənədlər müqayisə edilərək toponimlərin dəyişmə dinamikası izlənilmişdir.

İqtisadi-statistik təhlil;

Toponimlərin funksional məzmunu ilə regionun iqtisadi ixtisaslaşma göstəriciləri arasındakı əlaqə təhlil edilmişdir. Məsələn, suvarma infrastrukturu ilə bağlı hidronimlərin sıxlığı aqrar intensivləşmə zonaları ilə müqayisə edilmişdir.

Kartoqrafik uyğunlaşdırma;

Tarixi toponimlər müasir coğrafi koordinatlarla eyniləşdirilmiş, onların landşaft strukturu ilə əlaqəsi təhlil olunmuşdur. Bu mərhələdə relyef, hidroqrafiya və məskunlaşma şəbəkəsi nəzərə alınmışdır.

Sosial-etnoqrafik metod;

Yerli əhali ilə aparılmış müsahibələr vasitəsilə mikrotoponimlərin yaranma səbəbləri və funksional mənası müəyyən edilmişdir. Bu metod xüsusilə rəsmi sənədlərdə qeyd olunmayan adların identifikasiyası üçün tətbiq edilmişdir.

**İnteqrativ iqtisadi-toponimik model.** Tədqiqat çərçivəsində "Toponim – İqtisadi Funksiya – Tarixi Mərhələ" modeli qurulmuşdur. Bu model aşağıdakı prinsiplərə əsaslanır:

- Hidronimlərin sıxlığı → süni suvarma və aqrar intensivləşmə;
- Qışlaq/oba terminləri → yarımköçəri maldarlıq;
- Karvan yolu, bazar → tranzit-ticarət mərhələ;
- Mədən və filiz adları → sənaye ixtisaslaşması;
- İdeoloji urbanonimlər → siyasi transformasiya.

Beləliklə, toponimlər regionun iqtisadi-coğrafi inkişaf mərhələlərinin indikatoru kimi qiymətləndirilmişdir (cədvəl 1).

**Cədvəl 1.Gəncə–Daşkəsən regionunun inzibati vahidləri və onların əsas iqtisadi-toponimik xüsusiyyətləri**

| İnzibati vahid | Statusu | Coğrafi yerləşməsi | Əsas iqtisadi-toponimik profil |
|---|---|---|---|
| Gəncə | Şəhər | Gəncə-Daşkəsən düzənliyi | Tarixi və sənaye mərkəzi |
| Daşkəsən | Rayon | Kiçik Qafqaz (dağlıq) | Filiz yataqları və sənaye adları |
| Gədəbəy | Rayon | Kiçik Qafqaz (dağlıq) | Qədim mədən və qala adları |
| Göygöl | Rayon | Dağlıq və meşəlik | Rekreasiya və təbiət adları |

| | | | |
|---|---|---|---|
| Goranboy | Rayon | Kür-Araz ovalığının qərbi, şimalda Bozdağ silsiləsi, cənubda Kiçik Qafqaz ətəkləri (düzənlik və dağətəyi) | Etnotoponimik qat (goran boyu), 64 arx adı ilə suvarma şəbəkəsi |
| Samux | Rayon | Kür boyu | Meşə və ovçuluq toponimiyası |
| Naftalan | Şəhər | Dağətəyi zona | Müalicəvi neft yatağı (funksional) |

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimik sistemi regionun tarixi-iqtisadi inkişaf mərhələlərinin çoxqatlı və strukturlaşdırılmış tematik xəritəsini formalaşdırır. Toponimlər yalnız linqvistik mənşə baxımından deyil, həm də iqtisadi-coğrafi indikator kimi regionun funksional transformasiyasını əks etdirir.

Linqvistik və etimoloji təhlil göstərir ki, regionun ad sistemi əsasən türk mənşəli təbəqəyə söykənir və bu, ərazidə etnik davamlılığın göstəricisidir. Gəncə toponiminin qədim türkdilli Gəncəklər tayfası ilə əlaqələndirilməsi (Mahmud Qaşqari, XI əsr), Goranboy adının boy-tayfa strukturu ilə bağlılığı regionun etnotoponimik qatının güclü olduğunu göstərir. Ərazidə qeydə alınan Alpout, Ayrım yeri, Quşçular, Kolanı dərəsi, Oğuz qəbiristanlığı kimi çoxsaylı etnotoponimlər bu nəticəni təsdiqləyir. Eyni zamanda fars və rus mənşəli qatlar tarixi inzibati mərhələlərin semantik izləri kimi formalaşmışdır. Beləliklə, toponimik sistem regionun tarixi-stratiqrafik inkişafını əks etdirən çoxqatlı struktur nümayiş etdirir.

Hidronim və oronimlərin təhlili onun fiziki-coğrafi və ya iqtisadi fəaliyyətə təsirini təsdiqləyir. Belə ki, Murovdağ, Qoşqar kimi oronimlər həm relyef xüsusiyyətlərini, həm də qədim inancları əks etdirir. Kür hidronimi kimi adlar isə hidroqrafik xüsusiyyətlərlə iqtisadi istifadə arasında qarşılıqlı bağlılığı göstərir. Xüsusilə suvarma infrastrukturu ilə bağlı terminlərin geniş yayılması yarımsəhra şəraitində aqrar intensivləşmənin əsas mexanizmlərindən birini təşkil etmişdir (Yüzbaşov, R. M., 1966). Goranboy rayonu ərazisində qeydə alınan 64 arx adı (Borsunlu arxı, Xan arxı, Hazırəhmədli arxı və s.) və 14 kəhriz adı (Məscid kəhrizi, Rəhimbəy kəhrizi, Qaymaqlı kəhrizi və s.) bu sistemin miqyasını və təşkilatlanma səviyyəsini nümayiş etdirir.

İnzibati vahidlər üzrə iqtisadi-toponimik profilin müqayisəli təhlili region daxilində funksional diferensiasiyanı aydın şəkildə göstərir. Gəncə şəhəri tarixi və sənaye mərkəzi kimi formalaşmış, metallurgiya, maşınqayırma və emal sənayesinin inkişafı ilə yanaşı, üzümçülük və bağçılıq kimi aqrar ixtisaslaşmanı da qoruyub saxlamışdır. Daşkəsən rayonunda toponimik sistem mədən fəaliyyəti ilə sıx bağlıdır; dəmir filizi, alunit və digər mineral ehtiyatlar burada sənaye ixtisaslaşmasının əsasını təşkil edir. Gədəbəy və Göygöl rayonlarında həm qədim mədən adları, həm də rekreasiya xarakterli toponimlər paralel şəkildə mövcuddur ki, bu da resurs və turizm iqtisadiyyatının sintezini göstərir. Samux rayonunda meşə və ovçuluq terminlərinin üstünlük təşkil etməsi Kürboyu landşaftın təsərrüfat strukturuna təsirini nümayiş etdirir (Mehrəliyev, E.Q., 1987).

Regionun tarixi-iqtisadi dinamikası toponimik sistemdə ardıcıl şəkildə əks olunmuşdur. Orta əsrlərdə Böyük İpək Yolu üzərində yerləşməsi sənətkarlıq və tranzit-ticarət funksiyasını gücləndirmiş, Gəncə ipəyi və keramika məmulatları regionun iqtisadi profilini müəyyənləşdirmişdir. Şəhər daxilində Miskərlər, Xarratlar, Əttarlar, Dəmirçilər kimi sənətkarlıq məhəllələrinin, habelə Karvan yolu və Qara İsmayılın karvansarası kimi obyekt adlarının mövcudluğu bu ixtisaslaşmanın məkan təşkilini göstərir. XIX əsrdə alman məskunlaşması (Helenendorf) Avropa tipli şərabçılığın və kənd təsərrüfatı modernizasiyasının əsasını qoymuş, bu da regionun toponimik landşaftında yeni qat formalaşdırmışdır.

Müasir mərhələdə Gəncə–Daşkəsən zonası Azərbaycanın sənaye potensialına görə Abşerondan sonra mühüm regionlardan biri kimi çıxış edir. Region ölkənin sənaye məhsulunun müəyyən hissəsini təmin edir və əsasən dağ-mədən sənayesi üzrə ixtisaslaşmışdır. Daşkəsəndə dəmir filizinin çıxarılması və saflaşdırılması müəssisələri, Gəncədə alüminium-oksid istehsalı və digər emal sənayesi obyektləri resurs əsaslı iqtisadi modelin davamlılığını göstərir.

Energetika infrastrukturu da regionun iqtisadi funksiyasının ayrılmaz hissəsidir. Şəmkir və Yenikənd su elektrik stansiyaları, habelə Gəncə istilik elektrik mərkəzi regionun və ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu enerji obyektləri regionun hidroqrafik və relyef xüsusiyyətlərinin iqtisadi istifadəsinin müasir mərhələsini təmsil edir.

Nəqliyyat-logistika infrastrukturu regionun geoiqtisadi mövqeyini gücləndirir. Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı–Gəncə–Qazax–Tbilisi magistralı, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum kəmərləri regionu beynəlxalq enerji və tranzit dəhlizlərinin mühüm hissəsinə çevirmişdir. Bu layihələr regionun "Qərb Qapısı" funksiyasını möhkəmləndirir və müasir mərhələdə yeni iqtisadi-toponimik qatın formalaşmasına zəmin yaradır.

Sosial-mədəni və elmi infrastruktur da regionun iqtisadi profilinə uyğun formalaşmışdır. AMEA-nın Gəncə Bölməsi və ali təhsil müəssisələri (Aqrar və Texnologiya universitetləri) regionun sənaye və aqrar ixtisaslaşmasına uyğun kadr potensialı formalaşdırır. Naftalan və Göygöl–Hacıkənd zonalarının rekreasiya və müalicə ehtiyatları isə turizm sektorunun inkişafına təkan verir və toponimlərin brendləşmə potensialını artırır.

Beləliklə, "Toponim – İqtisadi Funksiya – Tarixi Mərhələ" modeli Gəncə–Daşkəsən iqtisadi rayonunun empirik material əsasında əsaslandırılmışdır. Toponimlər regionun aqrar-suvarma sistemi, yarımköçəri maldarlıq strukturu, tranzit-ticarət şəbəkəsi, resurs əsaslı sənaye modeli, enerji infrastrukturu və geoiqtisadi inteqrasiyasının mərhələli inkişafını əks etdirən linqvistik kod sistemidir.

Tədqiqat çərçivəsində müəyyən edilmiş mikrotoponimlərin bir hissəsinin "passiv fond"a keçməsi, yəni obyektin özünün məhv olmasına baxmayaraq adın qalması, xüsusi maraq doğurur. Naftalan ətrafındakı "İtən meşə" (mal-qaranın itdiyi üçün), "Ceyran düzü", "Balabəy meşəsi", Goranboy rayonundakı "Arıxlı kəndi" (hazırda mövcud deyil), "Böyük kəhriz", "Palıd yeri" kimi adlar keçmiş landşaft elementlərinin yeganə linqvistik izləri kimi çıxış edir. Bu fakt toponimlərin tarixi coğrafiya üçün əhəmiyyətini göstərir.

Nəticə etibarilə, Gəncə–Daşkəsən regionunun toponimik landşaftı regionun minillik iqtisadi tarixinin strukturlaşdırılmış semantik xəritəsidir və onun sistemli təhlili iqtisadi coğrafiya, regional planlaşdırma və məkan idarəetməsi üçün mühüm metodoloji imkanlar yaradır.

Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimik sisteminin və iqtisadi inkişafının təhlili bir neçə mühüm elmi məqamı ortaya qoyur:

1. Etimoloji mübahisələr və etnik kimlik: Gəncə adının mənşəyi ilə bağlı müzakirələrdə "xəzinə" (ganj) və "gəncək tayfası" versiyaları arasında elmi rəqabət mövcuddur. Orta fars dilindəki "ganj" sözü şəhərin ticarət mərkəzi statusuna uyğun gəlsə də, linqvistik və tarixi faktlar, xüsusilə Mahmud Qaşqarinin məlumatları adın qədim türkdilli gəncəklərlə bağlılığını daha çox əsaslandırır. Bu isə regionun toponimik qatının yalnız coğrafi təsvirdən ibarət olmadığını, həm də ərazinin qədim etnik xəritəsinin bərpasına imkan verdiyini göstərir.

2. İdeoloji müdaxilələr və toponimik bərpa: Regionun toponimiyası müxtəlif dövrlərdə siyasi təsirlərə məruz qalmışdır. XIX əsrdə Yelizavetpol, sovet dövründə isə Kirovabad, Xanlar, Qasım İsmayılov kimi adların tətbiqi tarixi yaddaşın sıxışdırılması ilə müşayiət olunmuşdur. Müstəqillik dövründə Gəncə, Göygöl və Goranboy adlarının bərpası toponimik yaddaşın yenidən canlandırılması kimi qiymətləndirilə bilər. Bununla yanaşı, Goranboy rayonundakı bəzi kənd adlarının, məsələn, Sarov və Qırıqlının, rəsmi sənədlərdə dialekt formasında və ya təhriflərlə yazılması probleminin hələ də qaldığını göstərir.

3. "Passiv fond" və landşaftın dəyişməsi: Tədqiqat zamanı müəyyən edilən "İtən meşə", "Ceyran düzü", "Ayı talası" kimi adlar regionun keçmiş təbii mənzərəsinin bərpası üçün mühüm məlumat verir. Bu adların "passiv fond"a keçməsi, yəni obyektin özünün məhv olması və ya funksiyasını itirməsinə baxmayaraq adın qorunması, toponimik obyekt kimi əhəmiyyətini artırır. Məsələn, Naftalan ətrafındakı "İtən meşə" adı vaxtilə burada sıx meşə örtüyünün mövcud olduğunu göstərən mühüm linqvistik sübutdur.

4. İqtisadi funksionallıq və yeni inzibati bölgü: Naftalan və Daşkəsən nümunələri göstərir ki, regionun iqtisadi ixtisaslaşması toponim yaradan əsas amillərdən biridir. 2021-ci ildə Gəncə–Daşkəsən iqtisadi rayonunun ayrılması bu funksional adların iqtisadi idarəetmədə daha hədəfli

istifadəsinə şərait yaratmışdır. Bu dəyişiklik, eyni zamanda "Xunam" düzü kimi unudulmuş tarixi-coğrafi adların yenidən elmi dövriyyəyə qaytarılması zərurətini də gündəmə gətirir.

5. Maddi və mənəvi irs sərhədində: Gəncə–Daşkəsən zonasının iqtisadi potensialı — qızıl, dəmir filizi, aqrar məhsullar və digər resurslar — ilə onun toponimik zənginliyi arasında birbaşa əlaqə mövcuddur. Bu isə yer adlarının təkcə tarixi-coğrafi material kimi deyil, həm də turizm və ərazi brendləşməsi baxımından resurs kimi qiymətləndirilməsinə imkan yaradır.

Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimiyası regionun minilliklər boyu formalaşmış etnik, coğrafi və iqtisadi simasını əks etdirən zəngin linqvistik arxivdir. Bu regionun yer adları təkcə coğrafi identifikasiya vasitəsi deyil, həm də qədim sivilizasiyaların və tayfaların — gəncəklər, saklar, goranlar — bu torpaqlardakı izlərini qoruyan tarixi yaddaşdır.

Tədqiqatın əsas nəticələrini aşağıdakı bəndlərlə ümumiləşdirmək olar (Yusifov, Y., & Kərimov, S., 1987b).

Etimoloji zənginlik: Regionun ən böyük mərkəzi olan Gəncə adının pəhləvi dilindəki "xəzinə" (ganj) mənasından daha çox, Orta Asiyadan miqrasiya etmiş qədim gəncəklər tayfası ilə bağlı olduğu ehtimalı daha əsaslı görünür.

İqtisadi-coğrafi dominantlıq: Gəncə–Daşkəsən zonası sosial-iqtisadi potensialına görə Azərbaycanda mühüm regionlardan biridir. Regionun sənaye və aqrar ixtisaslaşması onun ümumi iqtisadi strukturunda aparıcı rol oynayır.

Sənaye və təbii resurslar: Regionun iqtisadi profilində dağ-mədən sənayesi mühüm yer tutur. Daşkəsəndə dəmir filizi və alunit yataqlarının mövcudluğu bu ixtisaslaşmanın maddi əsasını təşkil edir.

Funksional toponimika: Regionda iqtisadi fəaliyyət növləri yer adlarının yaranmasına birbaşa təsir göstərmişdir. Naftalan və Daşkəsən toponimləri funksional adlanmanın səciyyəvi nümunələri kimi çıxış edir.

Yekun olaraq, Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimik irsi və tarixi-iqtisadi inkişaf xüsusiyyətləri Azərbaycanın regional inkişaf tarixində və müasir iqtisadi strukturunda mühüm yer tutur.

Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimik sistemi regionun tarixi-iqtisadi inkişaf mərhələlərinin çoxqatlı və ardıcıl semantik strukturunu əks etdirir. Toponimlər yalnız coğrafi obyektlərin adlandırılması vasitəsi deyil, eyni zamanda iqtisadi ixtisaslaşmanın, təbii mühitə uyğunlaşmanın və siyasi transformasiyaların məkan üzərindəki linqvistik ifadəsi kimi çıxış edir.

Hidronimlərin geniş yayılması yarımsəhra şəraitində süni suvarma sisteminin regionun aqrar inkişafında aparıcı rol oynadığını təsdiq edir. Qışlaq, oba və digər pastoral terminlərin yayılması yarımköçəri maldarlıq modelinin regionun sosial-iqtisadi strukturunda uzunmüddətli element olduğunu göstərir. Tranzit və sənətkarlıq xarakterli urbanonimlər regionun tarixi ticarət əlaqələrini və şəhərdaxili əmək bölgüsünü əks etdirir. Daşkəsən və Naftalan kimi funksional oykonimlər isə təbii resurs amilinin məskunlaşma və urban inkişafında mühüm rol oynadığını nümayiş etdirir.

Müəyyən edilmişdir ki, toponimlərin funksional-semantik strukturu regionun iqtisadi mərhələlərinin məkan üzrə diferensiasiyasını konkret indikatorlarla izləməyə imkan verir. Xüsusilə Goranboy ərazisində qeydə alınmış çoxsaylı arx və kəhriz adlarının sıxlığı yarımsəhra və quru subtropik şəraitdə su idarəetməsinin aqrar təsərrüfatın intensivləşməsində determinant rol oynadığını daha aydın göstərir. Bu fakt hidronimlərin yalnız fiziki-coğrafi obyekt adı deyil, həm də aqrar-iqtisadi strukturun göstəricisi kimi qiymətləndirilməsini əsaslandırır (Mehrəliyev, Ə., 1987).

Eyni zamanda qışlaq, oba, yataq və digər terminlərin dağətəyi və düzən zonalarda cəmlənməsi yaylaq–qışlaq sisteminin təbii mühitlə uyğunlaşmış məkan modelini əks etdirir. Bu toponimik qat regionda yarımköçəri maldarlığın uzunmüddətli və sabit təsərrüfat forması olduğunu təsdiq edir. Karvan yolu, Qarabağ yolu və sənətkarlıq məhəllələri ilə bağlı urbanonimlər isə tranzit-ticarət və şəhərdaxili əmək bölgüsünün tarixi inkişafını semantik səviyyədə izləməyə imkan verir.

Bundan əlavə, mikrotoponimlərin bir hissəsinin "passiv fond"a keçməsi, yəni obyektin zəifləməsinə və ya sıradan çıxmasına baxmayaraq adın qorunması, toponimlərin tarixi-ekoloji dəyişikliklərin müəyyənləşdirilməsində əlavə məlumat mənbəyi olduğunu göstərir. Bu xüsusiyyət

toponimik materialın yalnız tarixi-iqtisadi rekonstruksiya üçün deyil, həm də landşaft transformasiyalarının qiymətləndirilməsi üçün praktik əhəmiyyətini artırır.

İdeoloji renominasiya proseslərinin təhlili göstərir ki, toponimik sistem siyasi dəyişikliklərə həssasdır və məkan üzərində simvolik nəzarətin mühüm alətlərindən biri kimi çıxış edir. Etnotoponimlərin dominantlığı regionun tarixi-etnik davamlılığını təsdiqləyir, sonrakı inzibati mərhələlər isə toponimik sistemdə əlavə semantik qatların formalaşmasına səbəb olmuşdur.

Tədqiqat çərçivəsində irəli sürülən "Toponim – İqtisadi Funksiya – Tarixi Mərhələ" modeli empirik material əsasında əsaslandırılmışdır. Modelin tətbiqi göstərir ki, toponimlərin sistemli təhlili regionun iqtisadi transformasiya mərhələlərinin rekonstruksiyasına imkan verir və iqtisadi-coğrafi təhlildə metodoloji alət kimi istifadə oluna bilər.

Nəticələr regional iqtisadi rayonlaşdırma, məkan planlaşdırılması, tarixi landşaftın bərpası və mədəni irsin qorunması sahələrində praktik tətbiq potensialına malikdir. Xüsusilə mikrotoponimlərin və "passiv fond"a daxil olan adların araşdırılması tarixi-ekoloji dəyişikliklərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır (Murzaev, E. M., 1974).

Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimik landşaftı regionun uzunmüddətli iqtisadi və etnik tarixinin linqvistik kodlaşdırılmış forması kimi qiymətləndirilə bilər və onun sistemli təhlili regional coğrafiyanın analitik imkanlarını genişləndirir.

Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimik sisteminin və iqtisadi inkişaf təhlili göstərir ki, yer adları regionun yalnız coğrafi identifikasiya vasitəsi deyil, həm də onun etnik, iqtisadi və siyasi transformasiyalarının çoxqatlı semantik göstəricisidir. Toponimik sistem burada linqvistik arxiv funksiyasını yerinə yetirir və məkanın tarixi-stratiqrafik qatlarının bərpasına imkan verir.

Ən mühüm elmi məsələlərdən biri Gəncə toponiminin etimologiyası ilə bağlıdır. "Ganj" ("xəzinə") versiyası şəhərin tarixi ticarət mərkəzi funksiyası ilə uyğunluq təşkil etsə də, Mahmud Qaşqarinin məlumatları və regionda türkdilli etnonim qatının dominantlığı bu adın "gəncəklər" tayfası ilə bağlılığına dair yanaşmanı daha əsaslı göstərir (Qaşqari, M., 2006). Bu mübahisə göstərir ki, toponimika yalnız dil faktı deyil, həm də etnik kimliyin rekonstruksiyası üçün metodoloji alət kimi çıxış edir. Beləliklə, toponimlərin təhlili regionun qədim etnik xəritəsinin yenidən qurulmasına imkan verir.

İdeoloji müdaxilələr də regionun toponimik tarixində xüsusi yer tutur. Yelizavetpol və Kirovabad kimi adlandırmalar siyasi hakimiyyətin məkan üzərində simvolik nəzarət mexanizmini nümayiş etdirir. Sovet dövründə həyata keçirilmiş renominasiya prosesləri tarixi yaddaşın transformasiyasına yönəlmişdir. Müstəqillik mərhələsində Gəncə, Göygöl və Goranboy adlarının bərpası "toponimik ədalət" konsepsiyası çərçivəsində qiymətləndirilə bilər. Gəncə şəhərində küçə adlarının dəyişdirilməsi ilə bağlı faktlar da bu prosesi aydın şəkildə göstərir. Məsələn, Molla Cəlil məhəlləsi Üzeyir Hacıbəyov və Vaqif küçələrini, Sofulu məhəlləsi Rixard Zorge küçəsini, Zərdabi məhəlləsi isə Lenin prospektini əhatə etmişdir. Bu, sovet ideologiyasının məkanı necə yenidən təşkil etdiyini göstərən səciyyəvi nümunələrdən biridir (Azərbaycan Sovet Ensiklopediyası, 1987). Bununla yanaşı, bəzi kənd adlarının dialekt formasında və ya təhrif olunmuş şəkildə rəsmi sənədlərdə saxlanılması standartlaşdırma probleminin davam etdiyini göstərir. Bu hal toponimikanın yalnız siyasi deyil, həm də inzibati və hüquqi ölçüyə malik olduğunu göstərir.

Tədqiqat zamanı müəyyən edilmiş mikrotoponimlər – "İtən meşə", "Ceyran düzü", "Ayı talası" və s. – xüsusi diqqət tələb edir. Bu adlar artıq mövcud olmayan landşaft elementlərini əks etdirir və "passiv fond" fenomenini formalaşdırır. Obyektin fiziki olaraq məhv olması, lakin adın semantik yaddaşda qalması toponimikanın ekoloji monitorinq aləti kimi potensialını göstərir. Məsələn, Naftalan ətrafında "İtən meşə" adının mövcudluğu vaxtilə burada sıx meşə örtüyünün olduğunu göstərən linqvistik fakt kimi çıxış edir (Qeybullayev, Q., 1986b). Bu baxımdan toponimlər landşaftın tarixi ekologiyasının rekonstruksiyası üçün alternativ məlumat mənbəyi hesab oluna bilər.

İqtisadi funksionallıq məsələsi müzakirənin mərkəzi komponentlərindən biridir. Naftalan və Daşkəsən kimi oykonimlər iqtisadi fəaliyyət növlərinin birbaşa adlandırma mexanizmi ilə bağlı olduğunu göstərir. Naftalanın "neft alan" etimologiyası, XIX əsrdə alman sahibkarlarının fəaliyyəti, eləcə də Neftçilər küçəsi kimi adlar iqtisadi ixtisaslaşmanın toponim yaradan əsas determinantlardan biri olduğunu təsdiqləyir. 2021-ci ildə Gəncə–Daşkəsən iqtisadi rayonunun yenidən

strukturlaşdırılması funksional adların regional idarəetmədə daha məqsədli istifadəsinə şərait yaratmışdır.

Regionun mineral-xammal bazası ilə toponimik strukturu arasında birbaşa əlaqə müşahidə olunur. Daşkəsəndə dəmir filizi və alunit yataqları, Gədəbəydə qızıl ehtiyatları və digər mədən obyektləri sənaye toponimiyasının əsasını təşkil edir. Eyni zamanda aqrar ixtisaslaşma – üzümçülük, kartofçuluq, pambıqçılıq – regionun iqtisadi profilində mühüm yer tutur və bu fəaliyyət növləri də məkanın semantik quruluşunda əks olunur. Bütün bunlar göstərir ki, toponimlər maddi iqtisadi baza ilə sıx bağlıdır və onların təhlili regional iqtisadi potensialın qiymətləndirilməsində əlavə indikator kimi istifadə oluna bilər.

Nəqliyyat-logistika infrastrukturu regionun müasir geoiqtisadi funksiyasını formalaşdırır. Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum kəmərləri regionu beynəlxalq enerji və tranzit şəbəkəsinə inteqrasiya etmişdir. Bu layihələr gələcəkdə yeni iqtisadi-toponimik qatın formalaşmasına təsir göstərə bilər. Beləliklə, toponimik sistem statik deyil, davamlı transformasiya prosesində olan dinamik strukturdur.

Ümumilikdə müzakirə göstərir ki, Gəncə–Daşkəsən regionunun toponimiyası regionun minillik etnik qatını, aqrar, iqtisadi modelini, sənaye ixtisaslaşmasını, ideoloji müdaxilələri və müasir geoiqtisadi transformasiyanı eyni zamanda əks etdirən çoxsəviyyəli sistemdir. Toponimlər bu mənada məkanın tarixi-iqtisadi strukturunun linqvistik kodlaşdırılmış formasıdır və onların sistemli təhlili regional coğrafiyanın metodoloji imkanlarını genişləndirir.

## NƏTİCƏ

Aparılmış tədqiqat göstərir ki, Gəncə–Daşkəsən iqtisadi rayonunun toponimik sistemi regionun tarixi-iqtisadi inkişaf mərhələlərinin öyrənilməsi üçün mühüm elmi-informasiya mənbəyidir. Toponimlər yalnız nominativ vahidlər deyil, həm də məskunlaşma dinamikasını, təsərrüfat ixtisaslaşmasını, təbii resurslardan istifadə formalarını və siyasi-ideoloji transformasiyaları əks etdirən məkan göstəriciləri kimi çıxış edir. Tədqiqat çərçivəsində tətbiq olunan funksional-semantik təsnifat, tarixi-müqayisəli yanaşma və iqtisadi-coğrafi interpretasiya regionun toponimik fondunun çoxqatlı strukturunu aşkara çıxarmağa imkan vermişdir.

Müəyyən edilmişdir ki, hidronimlər və su təsərrüfatı ilə bağlı adlar aqrar-suvarma sisteminin, qışlaq, oba, yataq tipli toponimlər pastoral təsərrüfat modelinin, funksional oykonimlər və urbanonimlər isə sənaye, tranzit-ticarət və resurs əsaslı inkişaf istiqamətlərinin formalaşmasını əks etdirir. Bu baxımdan "Toponim – İqtisadi Funksiya – Tarixi Mərhələ" modeli regionun iqtisadi transformasiya mərhələlərinin rekonstruksiyası üçün analitik çərçivə kimi əsaslandırılmışdır.

Tədqiqatın elmi əhəmiyyəti toponimlərin linqvistik obyekt olmaqla yanaşı, iqtisadi coğrafiya, tarixi coğrafiya və məkan planlaşdırılması üçün tətbiq oluna bilən indikator sistemi kimi təqdim edilməsindədir. Praktik baxımdan nəticələr regional rayonlaşdırma, tarixi landşaftın bərpası, mədəni irsin qorunması və mikrotoponimlərin sənədləşdirilməsi üçün metodoloji baza yaradır. Eyni zamanda bu yanaşma gələcəkdə GIS əsaslı məkan modelləşdirilməsi, toponimik verilənlər bazasının yaradılması və tarixi-ekoloji dəyişikliklərin daha dəqiq izlənilməsi istiqamətində genişləndirilə bilər.

## ƏDƏBİYYATLAR

Abbasov, M. Ə., & Nuriyev, E. B. (1988). Kirovabad–Qazax (Kirovabad və Naftalan şəhər sovetləri, Qasım İsmayılov və Şaumyan rayonları üzrə) coğrafi obyekt adlarının tədqiqi. Elm. S. 124.

Azərbaycan dilinin dialektologiya lüğəti. (1964). Azərbaycan SSR EA Nəşriyyatı.

Azərbaycan Sovet Ensiklopediyası. (1976–1987). 10 cilddə. Azərbaycan Sovet Ensiklopediyası Nəşriyyatı. VII cild. Səh. 468.

Kadmon, N. (2004). Toponymy: The lore, laws and language of geographical names. Vantage Press.

Mehrəliyev, E. Q. (1987). Xalq coğrafi terminlərinin izahlı lüğəti. Elm. S. 253.

Mehrəliyev, Ə. (1987). Azərbaycanın hidronimləri. Elm. S. 153.

Nuriyev, E. B. (1986a). Coğrafi reallığın toponimiyada əks olunması (Ağsu rayonunun materialları əsasında). Azərbaycan SSR EA Yer Elmləri Seriyası, (3), 69-114.
Nuriyev, E. B. (1986b). Azərbaycan toponimlərinin lüğəti. Elm. S.325.
Pospelov, E. M. (1971b). Geograficheskie nazvaniya mira. Nauka. C. 267
Qaşqari, M. (2006). Divanü Lüğat-it-Türk (R. Əskər, tərc., s. 120). Şərq-Qərb.
Qeybullayev, Q. (1986a). Toponimiya Azerbaijana. Elm. S. 353.
Qeybullayev, Q. (1986b). Azərbaycan toponimiyasının tarixi-linqvistik təhlili. Elm.
Yusifov, Y. B., & Kərimov, S. K. (1987a). Toponimikanın əsasları. Maarif. S. 245.
Yusifov, Y., & Kərimov, S. (1987b). Azərbaycanın tarixi coğrafiyası. Elm. S. 124.
Yüzbaşov, F. (1966). Azərbaycanın xalq coğrafi terminləri. Elm. S. 176.
Yüzbaşov, R. M. (1966). Azərbaycan coğrafiya terminləri. Elm. S. 376.

## SUMMARY

## TOPONYMY AND HISTORICAL-ECONOMIC DEVELOPMENT FEATURES OF THE GANJA-DASHKASAN ECONOMIC REGION

**Tunzala Ismayılova**
**Institute of Geography (PLE), Ministry of Science and Education of the Republic of Azerbaijan, Baku, Azerbaijan**

The article analyses the interaction between the toponymic system of the Ganja-Dashkasan zone and the region's historical and economic development, from economic and geographical perspectives. The study aims to determine the settlement forms, economic structure and stages of socio-economic transformation of the territory based on the semantic, functional and etymological characteristics of place names. The empirical base consisted of 850 toponyms, which were systematised using historical sources, archival documents, cartographic materials, and field research. It was determined that the wide distribution of hydronyms, winter quarters, villages, camps, caravansaries, and toponyms related to mining and crafts reflects the leading position of irrigated agriculture, semi-nomadic cattle breeding, trade and communication relations and the mining industry in the economic structure of the region. The ideological renomination processes observed in the toponymic system show the traces of political transformations in the space. A complex analysis of this system allows for a deeper understanding of the region's socio-economic and historical development patterns. As a result, the spatial and functional development trajectory of the region was reconstructed based on the “toponym-economic function-historical stage” model. The results of the study have important scientific and practical significance in terms of studying the historical landscape, regional planning, and preserving cultural heritage.

***Keywords:*** *toponymy, economic geography, irrigation system, semi-nomadic farming, regional development, Ganja-Dashkan region*

## РЕЗЮМЕ

## ТОПОНИМИЯ ГЯНДЖА-ДАШКЕСАНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА И ОСОБЕННОСТИ ИСТОРИКО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ РЕГИОНА

**Тунзаля Исмаилова**
**Институт географии (ПЮЛ), Министерство науки и образования Азербайджанской Республики, Баку, Азербайджан**

Статья посвящена анализу взаимодействия топонимической системы Гянджа-Дашкасанской зоны с историко-экономическими особенностями развития региона в экономико-географическом аспекте. Цель исследования – определить формы расселения, экономическую структуру и этапы социально-экономической трансформации территории на

основе семантических, функциональных и этимологических характеристик топонимов. Эмпирическая база состояла из 850 топонимов, систематизированных на основе исторических источников, архивных документов, картографических материалов и полевых исследований. Установлено, что широкое распространение гидронимов, зимних квартир, деревень, лагерей, караван-сараев, а также топонимов, связанных с горнодобывающей промышленностью и ремеслами, отражает ведущую роль орошаемого земледелия, полукочевого скотоводства, торгово-коммуникационных связей и горнодобывающей промышленности в экономической структуре региона. Наблюдаемые в топонимической системе процессы идеологического переименования показывают следы политических преобразований в пространстве. Комплексный анализ этой системы позволяет глубже понять социально-экономические и исторические закономерности развития региона. В результате была реконструирована пространственно-функциональная траектория развития региона на основе модели «топоним-экономическая функция-исторический этап». Результаты исследования имеют важное научное и практическое значение в области изучения исторического ландшафта, регионального планирования и сохранения культурного наследия.

***Ключевые слова:*** *топонимия, экономическая география, ирригационная система, региональное развитие, полукочевое земледелие, Гянджа-Дашканская область*